ədalət.-2017.-29 mart.-S.4.

*Xalq Artisti Ağaxan Salmanlının Adalet.az-a müsahibəsini təqdim edirik:*

**-Azərbaycanda kifayət qədər aktyor varmı?**

-Azərbaycanda nə qədər istəsən aktyor var, amma demək olar ki, rejissor yoxdur. Bir-iki rejissor varsa da onların maliyyə imkanları məhduddur. 28 Teatrımız var. Bu teatrlarda çalışan aktyorlardan də çox işsiz İncəsənət Universitetinin məzunları var. Təəssüf ki, bizim teatrlarımızda vakansiya məhdudiyyəti həmin istedadlı gənclərin arzularını ürəyində qoyur. Onlar başlayırlar başqa sahədə çalışmağa. Məcbur olurlar ki, gedib baş rola dəvət edirlər. Aktyoru müxtəlif janrlarda oynatmaq və onu təkminləşdirmək işi rejissorun əsas funksiyasıdır.Təəssüf ki, XXI əsr rejissorlarımız bu məsuliyyətlərdən qaçırlar və işlərini asan yolla həll etməyə çalışırlar. Və beləcə aktyorları da məhv edirlər. Ona görə də tamaşaçı baxır, nə dram oynayandan, nə komediya oynayandan tam zövq ala bilmir.

**-"Stand up" şoular keşmişdə də göstərilib. Hətta sizin də belə çıxışlarınız olub.**

-Bizimvaxtımızda Monoloq adlanırdı və estrada janrı sayılırdı. AzTV kanalında bayaramlarda gülməli monoloqlar deyirdik.

**-Fərdanın "Stand up" şourlarını bəyənirisiniz?**

-Bəyənirəm təbii ki, o da estrada janrıdır. Bizim köhnə monoloqlarımızın deyərdim ki modernizasiya olunmuş formasıdır. Bu zamanın tələbinə görə dəyişir. Təbii ki, mənim yaşda olan aktyorlar indi "Stan up" şou apara bilməz. Biz keçmişin səhnə tərbiyəsini görmüşük. Bizim vaxtda bir aktyor səhnədə bir və ya iki monoloq söyləyərdi. Tamaşaçını yormaq istəmirdik. İndi fərqlidir. "Stan up"çı çıxır səhnəyə və xırda replizlərlə bir saat, yaxud saat yarım səhnədə olur. Görünür bu tamaşaçıya zövq verir. Bizim peşəkar monoloqularımız olub. Hamımızın tanıdığı Qorxmaz Əlili, Eldəniz Zeynalov, Allahverdi Yolçuyev bu janrda özlərini yaxşı sınayıblar. Təbii ki, monoloq deyəndə təkcə komediya, satira yada düşməməlidir. Belə məqamda Böyük Filarmoniya səhnəsində görkəmli sənətkarımız Ələskər Ələkbərov Otellonun monoloqunu deyirdi. Fərda və digərlərinin çıxışlarında da rejissor işinin olmaması özünü biruzə verir. Bir qədər bayağılıq, eyni zamanda budanmaya ehtiyacı olan məsələlər var.

**-Mentalitet məsələsi var yəqin?**

-O mövzunun dərinliyinə getmək istəmirəm amma bizim vaxtımızda ümumiyyətlə belə tendensiya yox idi və qəbul olunmaz idi. Sizə deyim ki, heç bizim vaxtımızda televizorlarda Pampers, babasil, və ya insan orqanlarını göstərəcək reklamlar yox idi. İndi belə şeylər tamaşaçının gözünü açıb. Bizim ekranlarda insan orqanlarının bütün əzazillərini sağlamlıq müzakirəsinə çıxarırlar. Avropada bu hal çoxdan mövcuddur. Biz də indi xırda -xırda başlamışıq. Keçmiş aktyorların dilində xalq belə ifadələr eşidəndə diksinir amma cavanlar səhnədə və ya ekranda sərbəst olanda qəbul edilir və izlənilir. Gəncləri bağışlamaq olar amma yaşlıları heç vaxt.

# Xalq artisti : "Burnu əyri, qulağı yekə aktyorları baş rolda çəkirlər"

"Azərbaycanda nə qədər istəsən aktyor var amma demək olar ki rejissor yoxdur"



yarmarkalarda, ticarət mərkəzlərində alverlə məşğul olsunlar.

**-Rejissorlar nə qədər maaş alır ki?**

Əvvəla onu deyim ki, dövlət teatrlarında maaş yoxdur, olmayıb, olmayacaq da. Dövlət teatrlarında həmişə maaş az olub, elə sovet vaxtında da belə idi, indi də belədir. Rejissorun orta əmək haqqısı 300 manatdır. Akademik Milli teatrının rejissorları milli olduqlarına görə bizdən təxminən 2 dəfə çox maaş alırlar.

Amma sənə bir şey deyim yadında saxla: Qadından yaş soruşmazlar, artistdən də maaş. (Gülür)

**-Aktyor üçün janr fərqi olmalıdırmı?**

-Elə aktyorlar var ki, onun həm xarici görkəmi həm aktyorluq bacarığı dramda və ya əksinə komediyada uğurlu ola bilər amma əsl aktyor bütün janrlarda oynamağı bacarmalıdır. Məsələn mən gənc olanda saçlarım hələ tökülməmişdi, o zamanlar Romeonu oynayırdım, Cəfər Cabbarlını oynayırdım, Arturu oynayırdım. İndi qocalmışam və əsasən komedik rollar oynayıram, xarakter cizgiləri olan rollar oynayıram. Ona görə də aktyor bir istiqamətdə getsə gələcəkdə çörəksiz qalar. Aktyor bismillahdan başlayandan gərək özünü müxtəlif janrlarda yoxlasın ki, ona lazım olanda kosa-keçəli də ifa edə bilsin, lazım olanda Hamlet, Elxan və yaxud Aydını da. Amma çox təəssüf ki, indiki rejissorların işini yarıtmaz sayıram. Onlar aktyoru seçərkən axtardıqları cəhət həmin aktyorda üzdə görsənirsə bax onu zəli kimi sovurub qoparırlar. Təsəvvür elə ki, normalda almanı yedikdən sonra onun piçalını(qalığını) tulayırlar. Rejissorlarımız da aktyorları bax belə istifadə edirlər.

Amma kemişdə rejissorlar belə deyildilər. Təsəvür edin ki, mən Cəfər, Romeo oynadığım məqamlarda həm də Hacı Qəmbərdə Cəbi rolunu oynayırdım. Mən tələbə vaxtı Əbdül Əli bəyi oynayırdım. Doğrudur Sevil dram əsəri olsa da orada Əbdül Əli bəy komediya obrazı idi. Mən "Eşq və intiqam"da Piri babanı oynamışam. Deməyim odur ki, məni rejissorlarım tərbiyə edib. Bizim Zəfər Nemətov, Kərim Əsədov, Əliheydər Ələkbərov, Mehdi Məmmədov, Adil İskəndərov, Tofiq Kazımov, Şəmsi Bədəlbəyli kimi dahi rejissorlarımız olub.

Amma indiki rejissorlar aktyora baxırlar görürlər ki, "gözəl"dir bununla da məsələ həll olundu. Yəni onların gözündə aktyora görünüşünə görə rol verilir. Komediya filmi çəkən rejissor burnu əyri, çənəsiz, yekə qulaqları olan, qısası gülməli sifəti quruluşu olan birini

### *Tamaşaçıda günah yoxdur, günah aktyorlardadır*

**-Tamaşaçı daha çox bayağı ifalara, səhnələr meyl edir...**

-Təəsüf ki elədir. Bunu səbəbkarı aktyorlar və rejissorlardır. Məhz budanmadan səhnəyə çıxan aktyorlar göstərdikləri performanslarla tamaşaçının zövqünə təmas edir. Yadımdadır uşaq vaxtı nənəm deyərdi ki, uşağa gic deməzlər. Bir dəfə, iki dəfə üç dəfə dedikcə artıq bu söz uşağın ağlına batır və başlayır gicləməyə. Tamaşaçının zövqünü formalaşdıran səhnədir, efirdir. Bizim mentalitetlə götürəndə son illərin gənc aktyorların çıxışında bir qədər uyğun gəlməyən sözlər, söhbətlər var. Avropada, Almaniyada, Fransa da aktyorlar səhnədə daha sərbətdirlər, onlar daha çıq sözlər ifadə edirlər və bu orada qəbul olunur.

**-Bildiyimizə görə İncəsənət Universitetində də dərs demisiniz. Niyə ayrıldınız oradan?**

- Bəli, mən zaman-zaman fasilələrlə dərs demişəm. Mədənimaarif texnikumunda, İncəsənət və mədəniyyət universitetində. Bildiklərimi öyrətmək mənə xoş olur. Lakin, öyrənmək istəyən olanda. Öyrənməyə həvəsi olmayan, teatr sənətini sevməyən bir qrupa zorla sənət sevgisi aşılamaq olmaz. Dörd semestr bu cəzanı çəkdim, nəticədə faydasız olduğunu anlayıb, imtina etdim.

**-Gənc aktyorlar sizi çox əsəbləşdirir?**

- Bizim işimiz ümumiyyətlə əsəbi işdir. Düzgün olmayan bir intonasiya, məqamında səslənməyən replika, yaxud gecikmiş bir baxış əsəblə qarşılanır. Axı bütün dediklərim və demədiklərim stolarxası məşqlərdə, səhnə məşqlərində dönə-dönə deyilir, diqqətli olmaq tələb olunur. Bunun müqabilində buraxılan bütün səhvlər əsəblə müşayiət olunur.

**-Kinolarımız sərhəddi aşa bilib, ancaq teatrda bu uğuru qazana bilməmişik...**

-Görünür kinonun reklamı daha genişdir, ona görə belə fikir yaranıb. Azərbaycan teatrı da dünyanın bir çox ölkələrində qastrollara, festivallara gedir və uğurla qayıdır. Elə Gənc Tamaşaçılar Teatrını götürsək dəfələrlə və illərlə xarici qastrollardan uğurla qayıtmışıq.

**- Aqil Abbasla marketdəki hadisə necə olmuşdu?**

-Əvvəla deyim ki, o insana xüsusi hörmətim var. Bir dəfə marketdə alış-veriş edirdim, həmin vaxt Aqil Abbas da orada idi. Yaxınlaşıb kassirə dedi ki, Ağaxan müəllimin hesabını mən ödəyəcəm. Bu mənim pisimə getdi, ona narazılığımı bildirdim, dedim ehtiyac yoxdur. Biraz kobud davranmışdım, amma sonra üzürxahlığımı bildirdim ona.

**Rüfət Soltan**